# «Mirzə Cəlilin yazdıqlarından görünür ki, sosial demokratdır»

*Yazıçı Nicat Həşimzadə Adalet.az-a müsahibə verib.*

**- Nicat, yeni kitabın çıxır. Görünən odur ki, məhsuldarsan. Bir çox gənc yazarlara nisbətən, kitabların tez-tez çıxır. Amma həm də, narazısan kitabın satış məsələlərində. Belə olduğu halda, bəlkə çıxartmayasan, gözləyəsən bir qədər?**

- Bu gün feysbukda yazmışam ki, ön satışda 46 kitab satılıb. Əslində, təqribən 10 günlük zaman üçün məncə, pis nəticə deyil, əsasən də pandemiya dövründə. ”Boşluqdan qaçış” kitabımın 2 gün ərzində 90-ı satılmışdı. Təqdimat günü və növbəti gün ərzində olan satışı nəzərdə tuturam. Kitablarım 300 tirajla çıxır. 50 kitab özüm üçün saxlayıram. Qalan kitabları satışa verirəm. Ancaq bilirəm ki, 1000 tiraj sata bilmərəm. Reallığı qəbul etmək lazımdır. Bir portala kitablarımın pdf versiyasını yükləmişəm. 1000 nəfərdən çox yükləyib. Ancaq kitablar 200-300 civarında satılır. Belə bir vəziyyət var.

**- Bəs, bu qədər narazı olduğun halda yenə də yazmağa nə vadar edir? Dediklərin də bütün hallarda azdır. Adətən, yazıçılar deyir ki, nə olur olsun, bu, mənim ehtiyacımdır, yazmaq ehtiyacı. Səndə də belədir? Yoxsa, bir gün betseller olmaq ümidi ilə yazırsan?**

- Əslində, gözləmək istəyirdim. Ancaq dostlarım məni həvəsə saldı. 2020-ci ildə kitab çap etdirə bilmədim. İstədim ki, heç olmasa 2021-ci ildə kitab çap edə bilim. Ona görə dostların dəstəyi və ön satış sayəsində belə bir istək həyata keçmək üzrədir. Yazıçılıq əslində, elə narazılıqdan yaranır. Əgər heç bir narazılığın yoxdursa, cəmiyyətdə olan bütün hadisələr səni qane edirsə, nədən yazasan? Bir müddət yazmamağa çalışdım. Təxminən, 6 ay heç nə yazmadım. Gördüm ki, psixoloji vəziyyətim daha da gərginləşir, darıxıram, özümü heç yerdə tapa bilmirəm. Bəlkə də ehtiyacdır. Betseller olmağa isə inan ki, ümidim də, həvəsim də yoxdur. Özün də ciddi kitabları, ciddi mətnləri oxuyan adamsan. Hansı əsərlərin betseller olduğunu görürük. O tərzdə əsərlər yazmaq mənim üçün çox çətin görünür. Məsələn, mən detektiv əsər yaza bilmərəm. Yazanları da qınamıram. Hər kəsin öz yolu, öz tərzi var, öz oxucusu var. 4-cü kitabımı kağız kitab kimi çıxarmadım. Pdf versiyada oxuculara təqdim etdim. Min nəfərdən çox adam yüklədi. Məncə, Azərbaycan reallığında pis göstərici deyil. Əhali sayına baxanda azdır, amma oxucu sayını da bilirik də. Bilirsən, Orxan, bunlar dəyişkən vəziyyətdir e. Bəzən narazı olursan, bəzən razı. Bəzən əsəbi olursan, bəzən sakit. İnsanın ruh halı dəyişkəndir də.

### *“Ümumiyyətlə, yazı adamı gərək mühitlərdən qaçsın”*



**- Nicat, səni ədəbi mühitdən də narazı görürük... Konkret olaraq niyə, nədən narazısan? Yaxud da kimlərdən?**

- Mən həmişə istəmişəm ki, səmimi münasibətlər olsun, yazarlar biri-birilərinə dəstək olsunlar. Görünür ki, səhv etmişəm. Azər Qismət ”Çuğullar” kimi roman yazdı, ədəbi mühit susdu. Mən bu ədəbi mühitdən necə razı olum? Ümumiyyətlə, yazı adamı gərək mühitlərdən qaçsın. Vaxt itkisinə yol verməsin. İndi mənim heç kimdən, heç bir gözləntim yoxdur. Ədəbi mühitdən də, mediadan da heç bir gözləntim yoxdur. Gözlənti ilə yaşamaq insanı məğlubiyyətə aparır. Konkret elə adamlar yoxdur.

İstəyirəm ki, səmimi bir ədəbi müsabiqə olsun. Müstəqil jurnal olsun. Bunları görməyəndə də insan narazı olur da.

**- Belə çıxır ki, ”ədəbi kruq”ları nəzərdə tutursan sən də, hə? Əksər yazıçılar deyir ki, ədəbiyyatda qruplaşma var, hərə öz qrupunu tərifləyir. Razısan?**

- Orxan, sən bilirsən ki, mən həmişə səmimi danışıram. İnan ki, maraqlanmıram. Kim-kimi tərifləyir, kim hansı kruqdadır. Kimin məqsədi nədir. Vallah, maraqlanmıram. Belə şeylərə vaxt tapa bilmirəm. Bayaq özün dedin ki, məhsuldarsan. Məhsuldar olmağın birinci şərti belə hadisələrdən uzaq olmaqdır. Mənə elə gəlir ki, yazıçı öz işi ilə məşğul olmalıdır. Son 3 ildir ki, belə şeyləri izləmirəm. Xeyli oxunulası kitablarım var, üzərində işlədiyim mövzular var. Belə şeylərə vaxt tapa bilmirəm. Kimin hansı kruqda olması elə də vacib deyil.

Əsas odur ki, ədəbiyyatımız inkişaf etsin. Heç olmasa, qardaş ölkə Türkiyədə bizim yeni dövr ədəbiyyatımızı tanısınlar, oxusunlar.

### *“Mən iki ildən çoxdur ki, heç bir ”kruq”-da yoxam”*

**- Amma onu deyim ki, bu ifadə elə sənin haqqında da işlədilib. Sizin də bir neçə yazarla birlikdə ”kruq” olduğunuz deyilir...**

- Bilirəm nəyi nəzərdə tutursan. Mən iki ildən çoxdur ki, heç bir ”kruq”-da yoxam. Dediyin ”kruq”-da da yoxam. Belə şeylər məni yorur e. Hamı ilə münasibətimi qoruyub saxlamağa çalışıram. Amma ədəbi qruplardan, ədəbi mühitlərdən qaçıram. Selincerin bir fikri var; Deyir ki, yazıçının düşməni digər yazıçıdır. Dostluq edirlər, başları qarışır söhbətə, vaxt gedir, heç nə də yaza bilmirlər.

**- Axı, bu kruqlardan xarici yazarlarda da olub. Onlar da oturub söhbətləşib, dostluq ediblər. Belə çıxır, onlar bacarır, biz yox? Həqiqətən pisdir ki, yazarların dostluğu, bir birini oxuyub tərifləməyi, irəli çəkmək istəyi və.s**

- Mən pisdir demirəm ki. Ola bilər ki, yaxşıdır, hətta vacibdir. Sadəcə, məni yorur, Kruqlarda enerjimi itirirəm. Avropada bəli, belə kruqlar olub. Amma onların kruqlarının əsasında ideya dayanırdı. Məsələn, sağçıların ayrı kafesi, ayrı kruqu vardı, solçuların ayrı kafesi, ayrı kruqu vardı. Nəticədə iki tərəf arasında ciddi rəqabət gedirdi və gözəl əsərlər yazılırdı. Bizdə belə deyil axı. Bizim kruqları hansı ideya birləşdirir ki.

### *“Zamanıma və enerjimə heyfim gəlir”*

**- Bəs, ədəbi qurumlar necə, onlar nəsə edə bilirmi ədəbiyyata? Ən başlıca qurum AYB-dir. Onun tərkibində qəzet və jurnallar var. Razısanmı ? Fəaliyyətlərdən, ədəbiyyat üçün edilənlərdən nə deyə bilərsən?**

- Ədəbiyyat qəzeti əvvəllər 16 səhifə idi. Azər Turanın gəlişindən sonra 32 səhifə oldu. Həm də, AYB üzvü olmayan müəlliflər də qəzetdə çap olundu. Məsələn, mən AYB üzvü deyiləm, ancaq ”Ədəbiyyat” qəzetində dəfələrlə çap olunmuşam. ”Ulduz” jurnalında da Qulu Ağsəsin əməyi sayəsində yeniliklər var. Jurnal çıxır, növbəti ay çıxan jurnalda keçən ayın yazıları təhlil olunur, tənqidlər yazılır. Əlbəttə, əgər iş varsa nöqsanlar da olacaq. ”Ulduz” jurnalını və ”Ədəbiyyat” qəzetini izləyirəm. ”Ədəbiyyat” qəzetinin saytını da izləyirəm. Çox maraqlı mətnlər görürəm. ”Azərbaycan” jurnalını mütəmadi izləmədiyim üçün dəqiq fikir deyə bilmərəm. Qulu Ağsəs bir neçə gəncin kitabını da çap etdi. Məncə, AYB ilə davaya enerji sərf etmək də doğru deyil, daha ciddi, daha maraqlı işlərlə məşğul olmaq lazımdır. Filankəs təqaüd aldı, mən niyə almadım, filankəs mükafat aldı, mən niyə almadım, bütün bunlar indi mənim üçün çox mənasız görünür. Mən kitab yazmaq, oxumaq, maraqlı hesab etdiyim mövzularda ciddi araşdırmalar etmək istəyirəm. Ədəbi kruqlar, ədəbi davalar indi mənə maraqlı deyil. Zamanıma və enerjimə heyfim gəlir.

**- Maraqsız görsənməyin səbəbi AYB ilə dava etməyin nəticəsiz qalacağıdır, ya necə? Təqaüdü haqqı olan hər bir yazar almalıdır. Ümumi olaraq isə AYB-yə ayrılan pulların ədəbiyyata tam xərcləndiyini düşünürsənmi? Bəzi həmkarların bunun əksini iddia edir.**

- Nəticəsiz qalmağı başa düşüləndir. Çünki AYB-yə alternativ müstəqil, ciddi ədəbi qurum yoxdur. Mən AYB üzvü deyiləm. Üzvü olsaydım, haqqım ola-ola təqaüd almasaydım, o zaman etiraz edərdim, müraciət edər, sual verər, maraqlanardım. Əgər 2021-ci ildə 10 yazıçı birləşib bir qurum yaradıb ciddi işlər görə bilmirsə, əlbəttə təklikdə mübarizə aparan adamlar uduzacaq. İndi mən desəm ki, AYB- yə ayrılan pulların hamısı ədəbiyyata xərclənmir, gərək əlimdə dəqiq sübut ola ki, sonra bu fikrimin arxasında dayana bilim. AYB-də aid olan ərazini gecə klubuna icarəyə vermişdilər, sənəddə də Çingiz Abdullayevin imzası var idi. AYB -yə aid olan ərazi gecə klubuna icarəyə verilirsə, yəqin ki, AYB- yə ayrılan pullar da hamısı ədəbiyyat naminə xərclənməz. Həmin hadisə zamanı Anar müəllim açıqlama verdi ki, milyonları yeyən adamları 8 min manat niyə qıcıqlandırır? Bu məntiqdən belə çıxır ki, kimdə 50 min manat rüşvət alırsa demək ki, mən də 500 manat rüşvət ala bilərəm. İkincisi də ki, 1992-ci ildə müharibə olan zaman Anar müəllim Türkiyəyə getmişdi. Ancaq 2020-ci ildə ikinci Qarabağ savaşında 80 yaşlı Anar müəllim dedi ki, döyüşməyə hazıram. AYB-də həqiqətən də intellektual, mütərrəqi addımlar ata biləcək insanlar var. Ancaq mühit, o mühit deyil. Bir qurum düşün ki, onun rəhbəri Elina faciəsində Elinaya əxlaqsız deyən bir direktoru müdafiə edən İcra Başçısını müdafiə edir. 14 yaşlı qız intihar edib. Sənsə, hələ də vəzifə haqqında və vəzifəli insanlarla münasibətini pozmamaq haqqında düşündüyün üçün, Elinaya əxlaqsız deyən direktoru dəstəkləyən İcra başçısını müdafə edəsən. Belə adamın rəhbərlik etdiyi qurumdan da mənim heç bir gözləntim yoxdur.

**(ardı var)**

**Söhbətləşdi;**
**Orxan Saffari**